# “Musiqi”li bağ











Buranı Bakı sakinləri “Filarmoniya bağı” kimi tanıyırlar. Bağa bu ad məkanına - Azərbaycan Dövlət Filarmoniyası ilə qonşu olduğuna görə verilib.

Filarmoniya bağı paytaxtımızın ən gözəl, ələlxüsus da bənzərsiz bağlarından biridir. Ona bu özünəməxsusluğu, zövq-səfanı bəxş edən təkcə uca qamətli ağacları, səliqə ilə sıralanmış kolları, çələng-çələng gül-çiçəkləri deyil. Bağın yerləşdiyi coğrafi şərait - enişli-yoxuşlu ərazidə olması ona təbii görkəm verir. Bağa istirahət etməyə gələnlər, yolu buradan keçənlər özlərini sanki yaşıl dağ yamacında, yaxud meşəlik ərazidə hiss edirlər.

Filarmoniya bağının bir bənzərsizliyi də onun İçərişəhərlə qonşu olması, qədim qala divarlarına “söykənməsi”dir. Lakin tarixi olmaqla yanaşı, bağ həm də müasirdir, gündən-günə gəncləşir. Burada yeni yaşıllıqlar salınır, insanların rahat istirahət etməsi üçün müasir infrastruktur qurulur.

Təbii ki, Filarmoniya bağı eyni zamanda musiqili bağdır. Özü də təkcə ona görə yox ki, musiqi ocağı ilə yanaşı dayanıb və bağa oradan daim xoş təranələr süzülür. Həm də ona görə ki, bağdakı pillələrin naxışlı məhəccərləri də, burada quraşdırılmış ornamentli oturacaqlar da, fəvvarələrin ətrafına düzülmüş kiçik heykəllər də insana istər-istəməz musiqi notlarını xatırladır. Bir musiqi də fəvvarələrin özlərinin nəğməyə bənzəyən səsidir...

***Foto Fərman BAĞIROVUNDUR,***
***“Azərbaycan”***